**Hizer Morris**

# AUŞVİTS döyməçisi

İngiliscədən tərcümə:
Sevil Gültən

qanun nəşriyyatı

Heather Morris

# THE tattooist OF AUSCHWITZ

Bəlkə də, “Auşvits döyməçisi” əsərini hamı oxumalıdır – uşaqdan-böyüyə kimi. Niyə? Çünki hər bir insanın həyatında çətin, dözülməz saydığı dönəmlər olur. Bu, qaçılmazdır. Məhz belə dönəmdə bu əsərin qəhrəmanları, həm də gerçək qəhrəmanları hər kəsə gözəl bir nümunə ola bilər.

Sonda müəllif qeyd edir ki, əsərin əsas personajı olan Lale ona xatirələrini bəzək-düzəksiz, olduğu kimi qələmə almağı tapşırıb. Bu mənada, ola bilər, roman bədiilik baxımından oxucunu qane etməsin. Ancaq əsas olan odur ki, oxuyacağınız tərtəmiz həyat həqiqətidir. Həyatın isə hər üzü var.

*Lale Sokolovun xatirəsinə*

*Mənə etibar edib özünün və Gitanın həyat hekayəsini danışdığın üçün təşəkkür edirəm.*

# İÇİNDƏKİLƏR


PROLOQ ........................................ 9

BİRİNCİ FƏSİL (APREL, 1942) ........................................ 11

İKİNCİ FƏSİL ........................................ 29

ÜÇÜNCÜ FƏSİL (İYUN, 1942) ........................................ 49

DÖRDÜNCÜ FƏSİL ........................................ 67

BEŞİNCİ FƏSİL ........................................ 75

ALTINCI FƏSİL ........................................ 83

YEDDİNCİ FƏSİL ........................................ 93

SƏKKİZİNCİ FƏSİL ........................................ 105

DOQQUZUNCU FƏSİL (MART, 1943) ........................................ 113

ONUNCU FƏSİL ........................................ 119

ON BİRİNCİ FƏSİL (MAY, 1943) ........................................ 125

ON İKİNCİ FƏSİL ........................................ 131

ON ÜÇÜNCÜ FƏSİL ........................................ 141

ON DÖRDÜNCÜ FƏSİL ........................................ 153

ON BEŞİNCİ FƏSİL ........................................ 161

ON ALTINCI FƏSİL (MART 1944) ........................................ 167

ON YEDDİNCİ FƏSİL ........................................ 173

ON SƏKKİZİNCİ FƏSİL ........................................ 177

ON DOQQUZUNCU FƏSİL........................................................................ 187
İYİRMİNCİ FƏSİL ........................................................................ 201
İYİRMİ BİRİNCİ FƏSİL........................................................................ 211
İYİRMİ İKİNCİ FƏSİL ........................................................................ 219
İYİRMİ ÜÇÜNCÜ FƏSİL ........................................................................ 225
İYİRMİ DÖRDÜNCÜ FƏSİL........................................................................ 231
İYİRMİ BEŞİNCİ FƏSİL ........................................................................ 241
İYİRMİ ALTINCI FƏSİL ........................................................................ 249
İYİRMİ YEDDİNCİ FƏSİL ........................................................................ 257
İYİRMİ SƏKKİZİNCİ FƏSİL ........................................................................ 277
EPİLOQ ........................................................................ 285
MÜƏLLİFİN QEYDİ ........................................................................ 289
ƏLAVƏ MATERİAL ........................................................................ 293
SÖZARDI ........................................................................ 295
MİNNƏTDARLIQ ........................................................................ 299

# PROLOQ

Lale çalışır ki, başını yuxarı qaldırmasın. Ona verilən bir parça kağızı götürmək üçün əlini uzadır. Bu kağızı əlində tutan qızın qoluna beş rəqəmi döymə (tattoo)[1] etməlidir. Qızın qolunda nömrə var, amma rəqəmlərin rəngi solub. O, iynəni qızın sol qoluna sancır, 3 rəqəmini döymə edir, çalışır ki, emosiyalarını boğsun. Azca qan axır. Lakin iynə hələ yetərincə dərinə getməyib və o, rəqəmin üstündən bir də döymə etməlidir. Lale bilir ki, iynəni sancanda ağrıdır, bununla belə, qız ağrıdan səksənmir. *Onlara xəbərdarlıq edilib: heç nə demə, heç nə etmə.* O, qanı silir və yaraya yaşıl mürəkkəb sürtür.

Cəld ol! – Pepan pıçıldayır.

Lale rəqəmləri döymə etməyə çox vaxt sərf edir. Kişilərin qollarına döymə etməyə adi baxılsa da, cavan qızların qollarını döymə ilə korlamaq dəhşətdir. O, başını yuxarı qaldıranda cərgədə dayanmış qızlara tərəf ağ xalatlı bir kişinin yaxınlaşdığını görür. Kişi arabir dayanır və dəhşətə gəlmiş qadınların üzünə və bədəninə diqqətlə baxır. Nəhayət, o, Laleyə çatır. Lale qızın qolunu bacardığı qədər ehtiyatla

[1] Tattoo – bədənə döydürülmüş şəkillər.

tutarkən həmin kişi qızın üzünü əli ilə tutur, kobudcasına o tərəf-bu tərəfə çevirir. Lale başını qaldırıb qızın qorxmuş gözlərinə baxır. Qızın dodaqları tərpənir, sanki nəsə deməyə hazırdır. Lale onun qolunu bərk-bərk sıxmaqla danışmamaq xəbərdarlığı edir. Qız ona baxır, o isə yavaşca "*sus*" deyir. Ağ xalatlı kişi əlini qızın üzündən götürür və çıxıb gedir.

– Əhsən, – Lale yerdə qalan 4 rəqəmi – 4902-ni döymə edərkən öz-özünə pıçıldayır. İşini bitirəndən sonra o, qızın qolunu lazım olduğundan da çox tutub saxlayır – yenidən onun gözlərinə baxa-baxa. Özünü məcbur edib yüngülcə gülümsəyir. Qız da ona baxanda üzündə təbəssüm görünür. Qızın gözləri Lalenin gözləri qarşısında "rəqs edir". Lale qızın gözlərinə baxarkən ürəyi sanki dayanır və yenidən döyünməyə başlayır, elə bil ürəyi bu dəqiqə sinəsi altından partlayıb çıxacaq. O, yerə baxır və yer ayaqları altında silkələnir. Ona başqa bir parça kağız verilir.

Lale, cəld ol! – Pepan ona pıçıldayır.

Lale başını qaldıranda görür ki, bayaqkı qız gedib.